# Binəqədi rayonunda mərkəzləşdirilmiş kitabxana sistemi

Azərbaycan Respublikası Prezidentinin 6 oktyabr 2008-ci itl tarixli 3072 saylı "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" haqqında sərəncamlarına uyğun olaraq Bakı Şəhər İcra Hakimiyyəti başçısının 2011-ci il 24 yanvar tarixli 40 nömrəli əmrinə və Bakı şəhər Mədəniyyət və Turizm İdarəsinin 27 yanvar 2011-ci il tarixli 04 saylı əmrinin icrasını təmin etmək məqsədilə Binəqədi rayonunda fəaliyyət göstərən 8 kitabxana bu MKS-in sərəncamına verilmişdir. MKS-in direktoru, təcrübəli mədəniyyət işçisi Rəna xanım Bilyandarlı ilə söhbət edərkən o bildirdi ki, mərkəzləşdirilmiş kitabxana sistemi (MKS) son zamanlar bir çox müvəffəqiyyətlər əldə etmişdir. Burada 6 şöbə oxuculara xidmət göstərir. MKS-in strukturuna daxil olan bütün kitabxanaların kitabxana fondu müvafiq şöbə tərəfindən milli vətənpərvərlik və vətəndaşlıq, milli-mədəni və mənəvi dəyərləri təbliğ edən kitablarla zənginləşdirilir. Bu işdə Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsinin köməkliyi də danılmazdır. Onu qeyd etmək lazımdır ki, təkcə 2014-cü ildə şöbəyə 1924 nüsxə, 367 adda ədəbiyyat daxil olmuşdur.

Tədbirlər planına uyğun olaraq Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin imzaladığı bir sıra sərəncamlara uyğun olaraq ciddi tədbirlər həyata keçirilmişdir. Həyata keçirilən bu tədbirlər arasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev irsinin öyrənilməsi və təbliği sahəsində silsilə tədbirlərə diqqət yönəldilmişdir.

Rəna xanım söhbət əsnasında onu da qeyd etdi ki, MKS bir çox respublika və beynəlxalq tədbirlərin fəaliyyətində yaxından iştirak edir. Məsələn, Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında 14 yanvar 2014-cü il tarixli sərəncamın icrasını təmin etmək üçün MKS filialları ilə birlikdə bir çox tədbirlər, həmçinin "Naxçıvan-90" tədbirlər silsiləsi də həyata keçirilmişdir.

MKS Rusiya Federasiyasının mətbuat, kütləvi informasiyalar üzrə Federal Agentliyinin təşkilatçılığı ilə Moskva şəhərində keçirilmiş gənc qiraətçilərin "Canlı klassika-2014" Beynəlxalq bədii qiraət müsabiqəsinin yerli seçim mərhələsinin təşkili üzrə tədbirlər silsiləsinin işində də yaxından iştirak etmişdir.

"MDB ölkələrində bədii təhsil. XXI əsrdə yaradıcı potensialının inkişafı", "Uşaqlar və bədii təhsil", "Füzuli 520" adlı yubileylə əlaqədar tədbirlər bu qəbildəndir.

Bundan başqa, MKS-də əlamətdar günlərlə əlaqədar tədbirlər də həyata keçirilir. Qələbə günü, "Silahlı Qüvvələr günü", "Azərbaycan əlifbası və Azərbaycan dili günü", "Beynəlxalq Ahıllar günü", "Neftçilər günü", "Dövlət Bayrağı günü", "Konstitusiya günü", "Dünya Azərbaycanlılarının Həmrəylik günü" və sair tədbirlər bu qəbildəndir. Onu da qeyd etmək lazımdır ki, işğal olunmuş rayonların anım günlərinə həsr olunmuş tədbirlər də mühüm yer tutur.

Cari ilin yarım ilində də MKS bütün göstəricilər üzrə nailiyyətlər əldə etmişdir. Belə ki, kitab fondu (nüsxə) 483665, oxucu (istifadəçi) sayı 21676, kitab verilişi (nüsxə) 382861, gəliş isə 224.09 olmuşdur.

Qeyd etməliyik ki, MKS-in strukturuna daxil olan bütün kitabxanaların kitabxana fondu mənəvi dəyərlərimizi təbliğ edən kitablar hesabına zənginləşdirilmişdir. Cari ildə komplektləşmə və kitabişləmə şöbəsinə 343 nüsxə, 119 adda ədəbiyyat daxil olmuşdur. Bu kitablar artıq filiallara təhvil verilmişdir.

Cari ildə də sistem öz ənənəsinə sadiq qalaraq bir çox mədəni-kütləvi tədbirlər həyata keçirmişdir.

Bakıda Avropa Oyunlarının keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin 2015-ci il 02 aprel tarixli "Bakı-2015" I Avropa Oyunlarının keçirilməsi ilə əlaqədar mədəniyyət və turizm sahələrində təbliğat işinin gücləndirilməsi haqqında" əmrinə əsasən MKS-də kitab sərgiləri, guşələr və söhbətlər təşkil edilmişdir. Mərkəzi Kitabxanada "Prezident İlham Əliyev və Azərbaycanda idmanın inkişafı" adlı tədbir təşkil edilmişdir. Qeyd etmək lazımdır ki, bu mövzuda tədbirlər filiallarda da təşkil olunmuşdur. Söhbət əsnasında Rəna xanım onu da qeyd etdi ki, MKS-də yubiley tədbirlərinə də diqqət artırılmışdır. Belə ki, "Ölməz sənətkar Rəşid Behbudov-100", "Rəşid Behbudov haqqında sənədli filmin nümayişi", "Ecazkar səs—Rəşid Behbudov", "Ömürdən qalan anlar", "Rəşid Behbudov-100, "Şuşanın korifey musiqiçiləri. R.Behbudov" və sair adlı tədbirlər mərkəzi kitabxana ilə yanaşı, filiallarda da təşkil edilmişdir.

Onu da qeyd etmək lazımdır ki, MKS 2012-ci ilin dekabrında Rusiya Federasiyasının Xarici İşlər Nazirliyi tərəfindən MDB məkanında ən yaxşı kitabxanalardan biri seçildiyi üçün polpeh.com elektron resursu hədiyyə edilmişdir.

Fərəhlə qeyd etməliyik ki, bu MKS Azərbaycanda Prezident kitabxanasından sonra ikinci kitabxanadır ki, bu bazaya tam daxilolma imkanı verilib. Bununla əlaqədar 2015-ci il yarımillik hesabat dövrü ərzində informasiya resus şöbəsi də həmin bazadan çox yararlanıb.

Fərəhlə qeyd etməliyik ki, MKS-in uşaq şöbəsi də öz işində nailiyyətlər əldə etmişdir. Şöbədə xidmət sahəsindəki uşaq müəssisələri, məktəblərlə, uşaq bağçaları ilə, uşaq yaradıcılığı müəssisələri ilə işləmək bir ənənəyə çevrilmişdir.

Son zamanlar dövri mətbuatla iş sahəsində də nailiyyətlər əldə edilmişdir. Bundan başqa kitabxana oxucularla əlaqəni daha da möhkəmləndirmək üçün onlar arasında anket sorğuları aparır, rəylərini öyrənir, hansı ədəbiyyata maraqlarını təhlil edərək nəticə çıxarır.

Kitabxana təkcə kitab verilişi ilə öz işini bitmiş hesab etmir. Eyni zamanda sərgilər, "dəyirmi masa"lar, məruzələr, mühazirələr, praktiki konfranslar və sair mədəni-kütləvi tədbirlər də kitabxanaya yeni oxucuların cəlb olunmasına səbəb olur.

**Zabit CAVADOV,**
**"Respublika".**